

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 193 (23.355)

15 oktyabr 2019-cu il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşüb.

Görüşdə müdafiə sənayesi, təhsil, turizm, mədəniyyət sahələrində əməkdaşlığın perspektivləri müzakirə olunub. Söhbət zamanı ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Oktyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin görüşü olub.

* * *

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov ilə görüşü olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Macarıstanın Baş Naziri Viktor Orban ilə görüşüb.

* * *

Dövlətimizin başçısı həmin gün Qazaxıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Serjan Abdıkarimovun etimadnaməsini qəbul edib.



## Orta İxtisas Polis Məktəbi üçün yeni tədris kompleksi istifadəyə verilib



Oktyabrın 14-də Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbi üçün yeni tədris kompleksi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.



Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov tədbirə hazırlıq barədə Ali Məclisin Sədrinə raport vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kursantları salamlamış, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin yaradılması və məktəb üçün müasir tədris kompleksinin istifadəyə verilməsi münasibətilə şəxsi heyəti təbrik edərək demişdir: Hər bir müstəqil ölkənin mövcudluğunun mühüm şərtlərindən biri də ictimai-siyasi sabitlik və bunun təminatçısı olan polis orqanlarıdır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***“Müstəqilliyi təmin etmək üçün bir neçə dövlət atributu mövcuddur. Əgər onların biri ordudursa, digəri müstəqil xarici siyasətdirsə, o birisi də Daxili İşlər Nazirliyi, polis orqanlarıdır”.*** Dahi şəxsiyyət bu zərurəti əsas götürərək ölkəmizə birinci rəhbərliyi dövründə Daxili İşlər Nazirliyi sistemində çalışanların vətənpərvərlik ruhunda təlim-tərbiyəsinə və peşəkarlığının artırılmasına xüsusi diqqət yetirmiş, ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra isə daxili işlər orqanlarının fəaliyyətində əsaslı dönüş yaradılmış, onun sıraları dövlətinə və xalqına sədaqətli şəxsi heyətlə komplektləşdirilmişdir.

Ali Məclisin Sədri demişdir: Ulu öndərin müəllifi olduğu dövlət quruculuğu strategiyasını uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında sabitlik və əmin-amanlıqdır. Dövlət başçısının qayğısı ilə digər sahələrlə yanaşı, polis orqanları üçün də müasir iş şəraiti yaradılmış, maddi-texniki baza təkmilləşdirilmişdir. Bütün bunlar da polis orqanlarının peşəkar kadrlarla təminatını zəruri edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 5 mart tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin yaradılması da bu sahədə görülən işlərin tərkib hissəsidir.

Qeyd olunmuşdur ki, Orta İxtisas Polis Məktəbinin yaradılması mühüm əhəmiyyətə malikdir. Orta İxtisas Polis Məktəbi hüquq-mühafizə orqanlarının orta rəis heyətinə olan tələbatını ödəyəcəkdir. Məktəb fəaliyyətə başladığı tarixdən böyük marağa səbəb olmuş, ötən dövrdə qəbul üçün 150-dən çox müraciət edilmişdir. Qanunvericilikdə nəzərdə tutulmuş normativlərə uyğunluq yoxlandıqdan və imtahanlardan sonra 25 kursant məktəbə qəbul olmuşdur.





Ali Məclisin Sədri kursantlara müraciətlə demişdir: Zabit olmağın şərəfi dövlətə və dövlətçiliyə sədaqətli olmaqdan, vəzifə və vətəndaşlıq borcunu vicdanla yerinə yetirməkdən ibarətdir. Bu gün Orta İxtisas Polis Məktəbinə qəbul olunanlar da yaxşı oxumaqla yanaşı, həm də vətənpərvər yetişməlidirlər. Özünüzü ciddi intizama və zabit məsuliyyətinə indidən hazırlamalı, çox mütaliə etməli, müasir texnologiyaları yaxşı mənimsəməli və onlardan bacarıqla istifadə etmək vərdişlərinə yiyələnməlisiniz. Məktəb lazım olan ən müasir tədris şəraitinə malikdir. Bu da zabit və müəllim heyəti üçün geniş imkanlar açır. Ona görə də tədris materiallarının yüksək səviyyədə mənimsənilməsini təmin edən üsul və vasitələr seçilməlidir. Kursantlara vətənpərvərlik hissləri aşılanmalı, onlar dövlətə, xalqa sədaqət ruhunda tərbiyə edilməlidirlər. Xidməti vəzifələrə məsuliyyətlə yanaşmaq, mətinlik, fiziki dözümlülük və peşəkarlıq ön plana çəkilməli, hər bir kursant nəzəri və praktik biliklərlə yanaşı, həm də ümumi intellektual təfəkkürə malik kadrlar kimi hazırlanmalı, qanunvericilik bazası dərindən öyrənilməlidir.

Ali Məclisin Sədri demişdir: Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi məktəbin fəaliyyətinin təmin olunması sahəsində bundan sonra da qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirməli, tədrisin keyfiyyəti yüksəldilməlidir. Muxtar respublikada polis orqanlarının maddi-texniki bazası ən müasir səviyyəyə çatdırılıb. İstər nazirlik, istərsə də bütün ərazi polis orqanları üçün müasir iş şəraiti olan inzibati binalar istifadəyə verilib. Kursantların gələcəkdə səmərəli fəaliyyət göstərməsi üçün lazımi imkanlar vardır. Daxili İşlər Nazirliyi muxtar respublikanın digər hüquq-mühafizə orqanlarında da orta rəis heyətinə olan tələbatı öyrənməli, kursantlar maraqlarına və potensiallarına uyğun sahələrə yönəldilməlidirlər.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında hər kəsə uğurlar arzulamış, Orta İxtisas Polis Məktəbinin müəllim, kursant və zabitlərini bir daha yeni tədris kompleksinin istifadəyə verilməsi münasibətilə təbrik etmişdir.

Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov çıxış edərək demişdir ki, bu gün muxtar respublikada sabitlik, təhlükəsizlik və hərtərəfli inkişaf davamlı xarakter almışdır. İctimai-siyasi və sosial-iqtisadi həyatın elə bir sahəsi yoxdur ki, diqqətdən kənarda qalsın. Son iki ildə Daxili İşlər Nazirliyinin maddi-texniki

Ardı 2-ci səhifədə





bazasının gücləndirilməsi üçün alınan xüsusi texniki avadanlıqlar, avtomobil texnikaları, şəxsi heyətin iş şəraitinin yüksəldilməsi üçün nazirliyin inzibati binasında həyata keçirilən əsaslı təmir-tikinti işləri böyük qayğının əyani ifadəsidir. Orta İxtisas Polis Məktəbinin yaradılması da muxtar respublikanın təhlükəsizliyinə və gənclərdə dövlətçiliyə xidmət fəlsəfəsinin formalaşmasına hesablanmış vacib qərar kimi mühüm tarixi əhəmiyyətə malikdir.



Bu gün məktəb üçün müasir tədris kompleksinin istifadəyə verilməsi kursantların, eləcə də sıravi və kiçik rəis heyətindən olan dinləyicilərin yüksək səviyyədə təhsil alması ilə yanaşı, onlarda vətənpərvərlik ruhunun gücləndirilməsinə, innovativ düşüncənin və rəqabətədavamlı biliklərin əldə olunmasına, müasir texnologiya və informasiya mühitində sərbəst davranışın təşviqinə, həmçinin günün nizam qaydalarına uyğun vaxtlarının səmərəli təşkilinə töhfə verəcəkdir.

Fazil Ələkbərov Daxili İşlər Nazirliyinin şəxsi heyətinin bundan sonra da ulu öndər Heydər Əliyevin ideyalarına sadiq qalaraq muxtar respublikada sabitliyin, əmin-amanlığın, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasını təmin edəcəklərini bildirmiş, göstərilən qayğıya görə minnətdarlıq etmişdir.

Kursant Həsən Həsənli çıxış edərək demişdir: "Muxtar respublikada gənclərin sağlam və vətənpərvər ruhda böyümələri və yüksək səviyyədə təhsil almaları üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Qeyd olunanların bariz nümunələrindən biri də Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin yaradılmasıdır. Ali Məclisin Sədri çıxışlarının birində demişdir: ***"Gənclərin bir yolu var, bu yol ölkəmizdə uğurla davam etdirilən Heydər Əliyev yoludur. Hər bir gənc yaradılan yüksək şəraitdən və göstərilən dövlət qayğısından bəhrələnərək vətəni və xalqı üçün layiqli vətəndaş olmağa çalışmalı, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməli və ona göstərilən etimadı doğrultmalıdır".*** Bu fikirlər kursantların əsas fəaliyyət istiqamətidir. Mən polis ailəsində böyümüşəm. Uşaq yaşlarımdan polis olmaq arzusunda olmuşam. Mənim və kursant yoldaşlarımın, eləcə də gələcək illərdə Orta İxtisas Polis Məktəbinə qəbul olacaq yüzlərlə gəncin arzuları reallığa çevrilib. Yaradılan yüksək şəraitə görə minnətdarlığımızı bildirir və söz veririk ki, peşəkar polis zabiti kimi yetişəcək, gələcək xidmətimizdə dövlətçiliyə daim sadiq qalacağıq".

Sonra Ali Məclisin Sədri Orta İxtisas Polis Məktəbinin şəxsi heyəti ilə xatirə şəkli çəkdirmiş, yeni tədris kompleksinin açılışını etmiş, yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, məktəb kompleksi tədris korpusundan, yeməkxana və yataqxana binalarından ibarətdir. Tədris korpusunda auditoriyalar, 3 elektron lövhəli sinif, xüsusi hazırlıq fənləri üçün kabinələr, kompüter sinfi, kriminalistik laboratoriya, tibb otağı, 90 yerlik iclas zalı və 3 min kitab fondu olan kitabxana yerləşir. Kitabxanada ulu öndər Heydər Əliyevin və ölkə Prezidenti cənab İlham Əliyevin həyat və fəaliyyətini əks etdirən siyasi ədəbiyyatlar, eləcə də oxunması zəruri olan kitablardan ibarət guşə yaradılmışdır. Binanın inzibati hissəsində əməkdaşlar üçün xidməti otaqlar, növbətçi hissə, müşavirə və server otaqları mövcuddur. Məktəbdə sıravi və kiçik rəis heyətinin ilkin hazırlıq kursunun səmərəli təşkili üçün də hərtərəfli şərait yaradılmışdır.

Avtonəqliyyat vasitələrinin istismarı və yol hərəkəti kabinəsində müasir sürücü təlim simulyatoru quraşdırılmışdır. Bildirilmişdir ki, texniki göstəriciləri və parametrləri avtomobillə eynilik təşkil edən simulyator müxtəlif yol və hava şəraitində təlimin keçirilməsinə imkan verir. Yol hərəkətinin təşkili və nizamlanması istiqamətində inspektorların hazırlanmasında mühüm əhəmiyyətə malik olan simulyator idarəetmə və nəzarət panelindən ibarətdir.






Təlim zamanı sürücünün avtomobili idarə etməsini fərqli kameralardan izləmək və onun idarəetmə bacarığını yoxlamaq mümkündür.

Kompleksdə kursantlara praktik təlim atışlarını və mürəkkəb əməliyyat şəraitində çevik qərar qəbuletmə vərdişlərini öyrətmək məqsədilə texnologiyanın ən müasir növləri ilə təchiz edilmiş interaktiv atəş hazırlığı sinfi, eləcə də çoxfunksiyalı idman alətləri ilə təmin olunmuş qapalı idman zalı qurulmuşdur. Qeyd olunmuşdur ki, interaktiv atəş sistemi kompüter, proyektor və lazer başlıqları quraşdırılmış silahlardan ibarətdir. Düzgün nişanalma və hədəfin kəşf olunması qaydaları, praktik atəşin yerinə yetirilməsi və səhra şəraitində atəş tapşırıqlarının icrası müxtəlif mərhələlər vasitəsilə sursat sərf etmədən kursantlara öyrədiləcəkdir. Bu sistemin əsas üstün cəhətlərindən biri də kursantlara interaktiv videolar vasitəsilə müxtəlif şəraitlərdə düzgün və ani qərar qəbuletmə vərdişlərinin aşılanmasıdır. Eyni zamanda muxtar respublikanın əməliyyat şəraitinə uyğun videoların hazırlanması, sistemə inteqrasiyası və öyrədilməsi də mümkündür. Praktik atəşdən sonra bütün qiymətləndirmələr kompüterin yaddaşında elektron lövhəli sinfə köçürülür ki, bu da yol verilən nöqsanların təhlil olunmasına imkan verir.

130 yerlik yataqxana binası mebel və yataq dəstləri ilə təmin edilmiş, kursantlar üçün məişət və istirahət guşəsi yaradılmışdır. Həmçinin binada bərbər və dərzi otaqları, anbarlar, hamam və camaşırxana istifadəyə verilmişdir. 160 nəfərlik yeməkxanada kursant və zabitlər üçün ayrı zallar, mətbəx, ət və tərəvəz məhsullarının emalı otaqları, ərzaq və əşya anbarları vardır.

Ali Məclisin Sədri tədris prosesində elektron dərsliklərdən istifadə olunması, kursantların atəş hazırlığına və qidalanmasına diqqətin artırılması, eləcə də yaradılan şəraitdən səmərəli istifadə olunması ilə bağlı tapşırıqlar vermişdir.

Məktəbin həyətində sıra təlimi meydançası yaradılmış, fiziki hazırlıq məşğələlərinin təşkili üçün açıq idman qurğuları qoyulmuş, yaşıllıqlar salınmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası Daşkənddə keçirilən Biznes və İnvestisiya Forumunda təmsil olunub

*Özbəkistanın paytaxtı Daşkənd şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) üzvü olan ölkələrin Biznes və İnvestisiya Forumu keçirilib. Forumda 55 nəfərdən ibarət Azərbaycan nümayəndə heyəti iştirak edib.*

Forumun rəsmi hissəsində Özbəkistan Baş Nazirinin müavini-maliyyə naziri Jamşid Kuçkarov türkdilli ölkələr arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyev Özbəkistanın bu quruma üzv olmasını mühüm hadisə adlandırıb.

Forumda Azərbaycan nümayəndə heyəti tərəfindən son illər ölkəmizdə genişmiqyaslı iqtisadi islahatların həyata keçirildiyi, qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində görülmüş işlərin iqtisadi inkişafa əsaslı təsir göstərdiyi qeyd edilib.

Biznes-forum çərçivəsində Türk dünyasının iş adamlarının ikitərəfli görüşləri də keçirilib. Görüşdə iştirak edən Azərbaycan Sahibkarlar Konfederasiyasının vitse-prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının üzvü, Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasov bildirib ki, bu il 10 yaşını qeyd edən şuranın 2009-cu ildə Naxçıvanda keçirilməsindən ötən dövr ərzində muxtar respublikada sahibkarlığın inkişafı üçün mühüm işlər görülüb, yüzlərlə yeni istehsal və xidmət sahələri yaradılıb. Bu qayğının nəticəsidir ki, bu gün muxtar respublikada 383 növdə məhsul istehsal olunur. Bunun da 126 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

Vurğulanıb ki, sahibkarlığın inkişafı nəticəsində Naxçıvan Muxtar Respublikasının Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə, Rusiya, İraq, Gürcüstan və digər ölkələrlə ticarət əlaqələri mövcuddur. Təkcə 2019-cu ilin yanvar-avqust aylarında muxtar respublikada 325 milyon 495 min ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınıb. İxracın dəyəri 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 285 milyon 764 min 900 ABŞ dolları təşkil edib, 246 milyon 34 min 800 ABŞ dolları dəyərində müsbət saldo yaranıb.

Görüşdə muxtar respublikada yaradılmış əlverişli investisiya mühiti, qarşılıqlı əməkdaşlıq əlaqələri haqqında ətraflı müzakirələr aparılıb.

Tədbirdə digər ölkələrin nümayəndələri də Türk Şurasının dirçəldilməsi ilə bağlı öz fikirlərini bölüşüblər.

**Səbuhi HƏSƏNOV**



Cəlil Məmmədquluzadə – 150

# Mirzə Cəlil ideyalarından güc alan Naxçıvan teatrı

***"Mən öz-özümə deyirdim ki, aya, görəsən, biz niyə bu günə qalmışıq və aya, niyə bizim teatr işlərimiz elə bir hala qalıbdır ki, teatr kimi müqəddəs bir maarif və sənət mənbəyinin xadimləri qocalmış bir Fatmanisə xala kimi bir ucdan bir-birinə qarğış edirlər (Sən hələ kollektiv axtarırsan). Ta o yerə kimi ki, balaca rejissorumuz da öz gözəl nitqi ilə sübuta yetirdi ki, mən bu artistlərin rəhbəriyəm (Ay zalım oğlu)..."***

Görkəmli dramaturq Cəlil Məmmədquluzadənin redaktoru olduğu "Molla Nəsrəddin" jurnalının 1928-ci il 11 oktyabr tarixli nömrəsində dərc olunan "Teatr söhbətləri" sərlövhəli yazının bu kiçik parçasından odövrkü teatrlarımızın acınacaqlı vəziyyətini az da olsa, təsəvvür edə bilirik. Jurnalın ayrı-ayrı buraxılışlarında işıq üzü görən "Teatr işləri", "Teatr konfransı", "Uşaq teatrı" və digər sərlövhəli yazılarda da həmin dövrdəki mədəniyyət ocaqlarımızın fəaliyyətsizliyindən, repertuar seçiminin düzgün aparılmadığından söhbət açılır. Bu gün tanınmış yazıçının yaşayıb-yaratdığı Naxçıvanda, eləcə də adını daşıdığı Naxçıvan Dövlət Musiqili Dram Teatrında bir vaxtlar görmək arzusunda olduğu tamaşalar göstərilir, səhnə bacarıqlı, istedadlı sənət adamlarının ixtiyarına verilir.

Tarixə qısa ekskursiya etsək, görərik ki, Naxçıvan teatrını Cəlil Məmmədquluzadənin əsərləri olmadan təsəvvür etmək qeyri-mümkündür. Görkəmli dramaturq yaşadığı dövrdə də daim teatr sənətinin inkişafı üçün çalışıb. Hamımıza yaxşı məlumdur ki, 1883-cü il mayın 11-də görkəmli ədib Mirzə Fətəli Axundovun "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyasının səhnələşdirilməsi ilə Naxçıvan teatrının əsası qoyulub. Məhz həmin tarixi hadisənin baş verməsində Cəlil Məmmədquluzadə də böyük təşəbbüs göstərib. O dövrdə Gürcüstanın Qori şəhərində yerləşən Zaqafqaziya Müəllimlər Seminariyasında təhsil alan Mirzə Cəlil adıçəkilən əsəri əldə edərək Naxçıvana göndərib və beləcə, burada ilk teatr tamaşası nümayiş etdirilib. 1880-ci illərin sonundan etibarən bir müddət Naxçıvanda teatr truppasına rəhbərlik edən görkəmli dramaturq tamaşaya hazırlanan əsərlərin, səhnə quruluşunun seçimində öz köməkliyini göstərib. 1889-cu ildə qələmə aldığı "Çay dəsgahı" alleqorik dram əsəri həmin il mart ayının 27-də Şərur rayonundakı Cəlilkənddə məktəblilər tərəfindən tamaşaya qoyulub. Ötən illər ərzində dəfələrlə teatr səhnələrində yer alan həmin pyesdə görkəmli yazıçı simvolik surətlərin dili ilə cəmiyyətdəki problemlərin həlli yollarının ilkin axtarışına çıxır. Günümüzlə səsləşən əsəri seyr edən tamaşaçı "Doğrunu yanlışdan, yaxşını pisdən necə ayırd etməli?" sualına müfəssəl cavab tapır. Müstəqillik illərində Naxçıvan Dövlət Kukla və Uşaq teatrlarında da göstərilən bu səhnə əsəri balacalar tərəfindən sevə-sevə izlənilib.

Görkəmli dramaturq 1909-cu ildə ədəbiyyatımızın tragikomediya janrındakı ilk əsərini, dörd pərdədən ibarət "Ölülər" dramını qələmə alıb. Xurafatı, nadanlığı və cəhaləti üzə çıxaran ən təsirli hadisələrin cərəyan etdiyi bu pyes ilk dəfə 1917-ci il iyunun 2-də Naxçıvan teatrında səhnələşdirilib, sonralar bir neçə dəfə teatrlarımızda nümayiş etdirilsə də, öz emosionallığını, təsir gücünü itirməyib. Xüsusilə əsərdə göstərilən qəbiristanlıq, Şeyx Nəsrullahın "ölüdiriltmə" səhnələri, eləcə də pyesin əsas qəhrəmanı, mühakimələrində kəskin olduğu qədər də mənən vüqarlı görünən İsgəndərin kinayəli sözləri tamaşaçı təxəyyülündə dərin təəssürat buraxır. Bu mükəmməl əsər barədə ən yüksək fikri xalqımızın ümummilli lideri Heydər Əliyev söyləyib. Belə ki, ulu öndər Cəlil Məmmədquluzadənin 125 illiyi münasibətilə görkəmli dramaturqun yaradıcılığını yüksək qiymətləndirərək deyib: ***"Mən "Ölülər" pyesinin tamaşasını ilk dəfə 13 yaşımda, Naxçıvan Dram Teatrında görmüşəm və o vaxtdan onun təsiri altındayam. Şeyx Nəsrullah, Kefli İsgəndər, Şeyx Əhməd obrazları və başqa obrazlar indi də gözümün qabağındadır. Həddindən artıq fəlsəfi bir əsərdir, insan fəlsəfəsinin ən yüksək zirvəsində olan əsərdir..."***

Orta məktəb illərində hər birimizin sevə-sevə mütaliə etdiyimiz "Anamın kitabı" dramı da görkəmli qələm sahibinin yaradıcılığında xüsusi yer tutur, onun müqəddəs amal uğrunda apardığı söz, qələm mübarizəsindən bəhs edir. 1920-ci ildə yazılan bu pyes 7 il sonra 1927-ci ildə Naxçıvanın teatr səhnəsinə yol tapıb. Pyesdə irəli sürülən fikir, ideya, məqsəd hər bir dövr üçün olduqca aktualdır, əsərdə milli ruhun müqəddəsliyi, doğma ana dilinin paklığının qorunması məsələsi qabardılır və haqlı olaraq bu məram hər şeydən üstün tutulur. Dramda dünyasını dəyişmiş atanın övladları üçün yazıb qoyduğu vəsiyyətnaməni oxumaqla Gülbahar öz qardaşlarını ana məhəbbətinə sığınmağa, milli kökə bağlanmağa səsləyir. Qardaşların müxtəlif soyadlarını daşıması onların xalqdan, öz soykökündən nə dərəcədə uzaq düşmələrini göstərir. Cəmiyyətdəki nöqsanlar, ictimai-siyasi eybəcərliklər, daxili çəkişmələr cəmiyyəti-xeyriyyənin iclası səhnəsində dolğun şəkildə öz əksini tapır. Görkəmli dramaturq tamaşaçının diqqətinə milli kimliyimizin açarı sayılan doğma dilimizi qoruyub saxlamağın ən müqəddəs amal olduğunu çatdırır.

Müstəqillik illərində Cəlil Məmmədquluzadənin dram əsərləri, felyetonları, hekayələri əsasında hazırlanan tamaşalar davamlı olaraq teatrlarımızda nümayiş etdirilib. Görkəmli dramaturqun 1907-ci ildə qələmə aldığı "Qurbanəli bəy" hekayəsinin əsasında hazırlanan, quruluşçu rejissoru Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyev olan eyniadlı tamaşa 2000-ci il sentyabrın 23-də ilk dəfə olaraq teatrsevərlərə təqdim edilib. Səhnə əsərində Qurbanəli bəy izləyiciyə yerli bəylərin tipik nümayəndəsi qismində təqdim olunur. Əsərin baş qəhrəmanı müəllif tərəfindən ruslar qarşısında alçaldılsa da, tamaşada onun müsbət xüsusiyyətlərinə də üstünlük verilib, elmi məsləhətçi və rejissor Qurbanəli bəyə qismən bəraət qazandırmağa çalışıblar. Onda Vətəninə, millətinə sevgi hissi milli musiqisi və mətbəxi ilə öyündüyü ayrı-ayrı epizodlarda aydın təzahür olunur. Səhnə əsərində akademik İsa Həbibbəylinin tövsiyəsi ilə Mirzə Cəlilin "Quzu" hekayəsindən, "Qondarma bəylər" və "Azərbaycan" kimi publisistik nümunələrindən, "Molla Nəsrəddin"in məşhur "Sizi deyib gəlmişəm" proqram-manifestindən istifadə olunub. Tamaşanı izləyən seyrçi o dövrün naqisliklərinə daha yaxından bələd olmaqla həm də 100 il bundan öncəki durumla bugünkü arasındakı böyük fərqi müqayisə edir.

2005-ci il aprelin 2-də isə Mirzə Cəlilin 1927-ci ildə yazdığı "Dəli yığıncağı" komediyasının tamaşası nümayiş olunub. Səhnə əsəri əvvəllər göstərilsə də, Xalq artisti Kamran Quliyevin quruluşunda daha cəlbedici alınıb. Pyesi nəzərdən keçirəndə görürük ki, böyük dramaturq "Dəli kimdir?" fəlsəfi sualı ilə o dövrdəki





cəmiyyətin ən müxtəlif zümrələrini bədii mühakiməyə çəkir. Kəskin ictimai-sosial konflikt və təzadlı əxlaqi görüşlər, mənəvi aləmlərin fərqli mürəkkəbliyi süjetin əsasında dayanır. Molla Abbasla Pırpız Sonanın "dəlilik" kimi görünən insani paklıqlarının müqabilində Həzrət Əşrəf, Fazil Məhəmməd kimilərinin din pərdəsi altında törətdikləri fitnəkarlıqlar qabarıq şəkildə ifşa olunur.

Naxçıvan Dövlət Universitetinin 1998-ci ildən fəaliyyət göstərən Tələbə Teatr Studiyasında ötən dövrdə görkəmli ədəbiyyat nümayəndəsinin "Anamın kitabı" və "Ölülər" əsərləri əsasında tamaşalar hazırlanaraq təqdim edilib. Səhnə əsərləri obrazları canlandıran tələbə-gənclər arasında sənət uğrunda rəqabəti gücləndirib, onlar xüsusi fəallıqları ilə rolların öhdəsindən məharətlə gəlməyə çalışıblar. Bu da belə deməyə əsas verir ki, Mirzə Cəlilin yaradıcılıq dünyasının inciləri həm də gənc aktyor nəslinin formalaşmasına təkan verib.

Ümumiyyətlə, bu günədək Naxçıvan teatrında görkəmli dramaturq Cəlil Məmmədquluzadənin bütün dram əsərləri səhnələşdirilib, hekayə və felyetonları əsasında müxtəlif səpkili tamaşalar hazırlanaraq teatrsevərlərə təqdim edilib. Onun əsərlərindəki təbiilik, dolğunluq, hadisələrin canlı, bənzərsiz axınla davam etməsi səhnədə rol alan aktyorlar üçün böyük sınaq imtahanı, püxtələşmə məktəbi olub. Mirzə Cəlil yaradıcılığına müraciət edən rejissorlar, obrazları canlandıran aktyorlar hər zaman üzərlərinə düşən böyük məsuliyyəti dərindən dərk edərək daha səylə çalışıb, bunula tamaşaçı qəlbinə yol tapmağa can atıblar.

Ədəbiyyatımızda dərin, sarsılmaz iz buraxan tanınmış ictimai xadim Mirzə Cəlilin keşməkeşli həyatı və yorulmaz fəaliyyəti bir çox yazıçı və publisistlərin də diqqətindən kənarda qalmayıb, onunla bağlı qələmə alınan əsərlər də teatrlarımızda nümayiş etdirilib. 1991-ci il aprelin 28-də Naxçıvan teatr səhnəsində yer alan Xalq yazıçısı Anarın "Sizi deyib gəlmişəm" əsərinin tamaşası olduqca maraqla qarşılanıb. Cəlil Məmmədquluzadənin yaradıcılıq manifesti sayılan "Molla Nəsrəddin" jurnalının fəaliyyətindən bəhs olunan pyesin müxtəlif mərhələlərində Mirzə Cəlil vaxtilə işlətdiyi "Lağlağı", "Mozalan", "Hərdəmxəyal" adları ilə səhnəyə gəlir və bu yolla süjetə yeni əhvalatlar əlavə olunur. Həmçinin görkəmli dramaturqun Məhəmmədhəsən əmi, Xudayar bəy, Zeynəb, Kəramət ağa, Səkinə kimi qəhrəmanları da pyesin iştirakçıları sırasındadır. Müəllif tamaşaçıya yüz il əvvəl tənqid olunmuş bəzi əxlaqi qüsurların bu gün də davam etdiyini göstərir.

Cəlil Məmmədquluzadə yaradıcılığından bəhs edən "Mirzə Cəlil taleyi" tamaşası isə Əməkdar elm xadimi, akademik Məmməd Cəfər Cəfərovun "İnsanlar və talelər" kinodramı əsasında hazırlanıb. 2013-cü il fevralın 21-də nümayiş olunan səhnə əsərində Cəlil Məmmədquluzadə və o dövrün tanınmış ədəbi-tarixi şəxsiyyətlərinin əsas yaradıcılıq ideallarından, türkçülük və islamçılıq baxışlarından bəhs edilir. Mirzə Cəlil haqqında yazılan hər iki əsərin tamaşasına Xalq artisti Kamran Quliyev quruluş verib.

Onu da xüsusilə qeyd etmək lazımdır ki, istər görkəmli dramaturqun həyat və fəaliyyətinin geniş şəkildə tədqiq edilərək gənc nəslə düzgün şəkildə aşılanmasında, istərsə də əsərlərindəki dərin fəlsəfi meyarların üzə çıxaraq ədəbi ictimaiyyətə təqdim edilməsində AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin rolu olduqca böyükdür. Görkəmli alimin mirzəcəlilşünaslıq istiqamətində apardığı geniş araşdırmaları müasir dövrün ədəbi-mühitində özünəməxsus cəhətləri ilə silinməz iz buraxıb. Eyni zamanda tanınmış dramaturqun əsərlərinin tamaşaya hazırlanmasında verdiyi dəyərli tövsiyələr səhnə əsərlərinin daha böyük rəğbət qazanmasına, sevilməsinə səbəb olub. Akademik İsa Həbibbəyli Naxçıvan Dövlət Universitetində Tələbə Teatr Studiyasını yaratmaqla gənc aktyorlar nəslinin yetişməsinə, püxtələşərək böyük səhnələrə yol tapmalarına əsaslı töhfələr verib, tamaşalar vasitəsilə Mirzə Cəlilə birmənalı münasibət bəsləməyib, onu təftiş edənlərə, dinsizlikdə günahlandıranlara, dühasına kölgə salmağa çalışanlara qarşı apardığı mübarizəsini nümayiş etdirib.

Cəlil Məmmədquluzadə teatrımıza elə böyük bir miras qoyub ki, bundan sonra yüz il də keçsə, tükənməyəcək. Müstəqillik illərində dövlətimiz tərəfindən görkəmli ictimai xadimin fəaliyyəti yüksək qiymətləndirilib, haqqında kitablar nəşr edilib, yubileyləri ən yüksək səviyyədə qeyd olunub. Ölkə Prezidenti cənab İlham Əliyevin "Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında" 2019-cu il 17 yanvar tarixli Sərəncamı görkəmli dramaturqun ədəbi irsinə verilən ən böyük dəyərdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə dair Tədbirlər Planı"na uyğun olaraq Mirzə Cəlil ideyalarından güc alan Naxçıvan teatrında görkəmli ədəbiyyat dühasının yubileyi ilə bağlı yeni tamaşa hazırlanıb. Böyük demokratın "Ölülər", "Dəli yığıncağı", "Ər" komediyaları və "Anamın kitabı" dram əsəri əsasında hazırlanan "Ölülər və dəlilər" tamaşasının ssenari müəllifi Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidovdur. Quruluşçu rejissorları Əməkdar artistlər Tofiq Seyidov və Nurbəniz Niftəliyeva olan səhnə əsərinin mövzusu "Həqiqi ölü və dəli kimdir?" sualı əsasında qurulub. İlk olaraq Türkiyənin Qars Qafqaz Universitetinin konsert salonunda nümayiş olunan həmin tamaşa böyük rəğbətlə qarşılanıb, səhnə əsərinin yaxın günlərdə Naxçıvan teatrında da göstərilməsi nəzərdə tutulub.

"Millətin mədəni-mənəvi tərəqqisi bundan çox asılıdır. Teatr tərbiyə ocağı, artist də tərbiyə edəndir", – deyən ədəbi xadim Cəlil Məmmədquluzadənin arzuları bu gün Naxçıvan teatrının timsalında artıq reallığa çevrilib. Mirzə Cəlil dramlarından, felyeton və hekayələrindən hazırlanan tamaşalar hələ bundan neçə əsr sonra da teatr ocaqlarımızı bəzəyəcək, bu səhnə əsərləri ilə onlarla rejissor, aktyor nəsli yetişəcək, Azərbaycan tamaşaçısı görkəmli dramaturqun dühasından yaranan möhtəşəm yaradıcılıq nümunələrini izləməkdən heç bir zaman usanmayacaq.

**Nail ƏSGƏROV**

## Tanınmış kardioloqlar naxçıvanlı həmkarları ilə təcrübə mübadiləsi aparıblar



Naxçıvan Muxtar Respublika Xəstəxanasında Azərbaycan Kardiologiya Cəmiyyətinin İnvaziv, Periferik və Serebrovaskulyar İşçi qruplarının təşkilatçılığı ilə elmi konfrans keçirilib.

Konfransın açılışında çıxış edən Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov bildirib ki, muxtar respublikada müasir səhiyyə infrastrukturunun formalaşması xəstələrin digər yerlərə üz tutmadan öz vətənlərində müalicə olunmalarına geniş imkanlar açır.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov, Milli Məclisin deputatı, tanınmış ürək cərrahı Rəşad Mahmudov, Türk Dünyası Kardiologiya Birliyinin vitse-prezidenti Fərid Əliyev və Azərbaycan Kardiologiya Cəmiyyətinin sədri Tofiq Cahangirov çıxış ediblər.

Çıxışlarda bildirilib ki, muxtar respublikadakı bütün səhiyyə müəssisələri ən müasir memarlıq üslubunda tikilən və ya bərpa olunan binalarda fəaliyyət göstərir. Burada müasir dövrün tələblərinə cavab verən tibbi avadanlıqlar quraşdırılıb, peşəkar həkim heyəti formalaşıb. Bir sözlə, Naxçıvan səhiyyə sahəsində çox böyük uğurlara imza atıb.

Konfrans öz işini bölmə iclasları ilə davam etdirib.

**Tural AĞAYEV**

# Zəhmətin nəğməsi

Payızın füsunkarlığı kimi bağ-bağçalarda, park-xiyabanlarda gəzməyə səsləmir ki? Yaşıldan neçə-neçə çalarlar yaratdığını görməyə çağırmır ki? Bu çağırışla sübh çağı – dan yerinin Günəşin növbəti doğuşunun ilkin şəfəqlərinin sehrində əridiyi vaxt Nursu kəndindəki böyük bağçamızda payızın rəssamlıq məharətinin seyrinə çıxıram. Sapsarı ağac, qəhvəyi ağac, qırmızı ağac və onların yarpaqlarının yaşıl çəməndə əsrarəngizliyinə tamaşa edib baharın sonunu gətirən payız haqqında daldığım düşüncələrdən məni ətrafdan, sanki yaxınlıqda hara isə bir maşın çınqıl boşaldırlarmış kimi gələn səs ayırır. Sübhün sükutunu pozan bu səs bitir, yenidən bir də eşidilir. Sanki bir musiqi parçasıtək zildən bəmə enir, kəsilir, bir qədər sonra yenidən təkrarlanır. Qulaq verirəm, anlayıram ki, bu səs çınqıl səsi deyil, bu qədər çınqıl hələ bir neçə il bundan əvvəl başdan-başa abadlaşdırılmış kənddə nəyə lazımdır ki? – deyə düşünürəm. Diqqət kəsilirəm, birdən xatırlayıram ki, axı indi cəviz çırpmaq vaxtıdır. Bu səs Naxçıvanımızın hər bir kəndində insanlara dədə-baba ərməğanı, zəhmətkeş ömürlərin yadigarı olan cəviz ağaclarının bar anının nəğməsidir. Bir qədər sonra saatlarla ətraf tamamilə bu nəğməyə bürünür. Sanki hamı sözləşibmiş kimi cəviz çırpır, ağaclardan yağış kimi tökülən zəhmət bəhrələri aşağı yuvarlandıqca çəməndə bir, daşda bir, dərədə başqa bir səs çıxarmaqla notlaşır, "zəhmətin nəğməsi" adlı bir musiqi əsəri yaradır. Könüloxşayan, dinlədikcə bitməməsi arzulanan heyrətamiz bir nəğmə.





Zəhmətin nəğməsi... Bəli, bu adda bir nəğmə varmış. Baxıram ki, bu nəğmənin "bəstəkarı" tək az öncə dinlədiyim cəviz ağacları deyil. Budaqdan üzülmə vaxtı çatan sapsarı heyvaların, alyanaqlı almaların, armudların üzüaşağı çəmənə – payız rəngli yarpaqların üzərinə düşən anında da səslənir bu nəğmə.

Bu nəğmə məni xəyalən payızdan çox-çox əvvələ – ilk bahara yolçuluğa çıxarır. Düşünürəm ki, bu nəğmə ilk notunu göylərin gurlaması, şimşəyin çaxması ilə insanları zəhmətə səsləməsindən almışdır. Yeni zəhmət ilinə "fərman verən" bu göy gurlamaları ilə yazın ilk günlərindən alınə bel, dırmıq alıb əkin yerləri hazırlayan insanların addımlarında duyulur zəhmətin nəğməsini yaradan notlar, akkordlar. Bağrına sancılan, altındakı xəzinəsini üzə çıxarmaqla zəhmətin nəticəsini gözlər önündə sərgiləyən belin torpağa təmas edən səsindədir bu nəğmə. Traktorların torpağın sinəsində açdığı şırımlarda, toxumsəpən maşınların səpinində, zəmilərin xəfif küləkdən dəniztək dalğalanmasında, bostanlardan, əkin yerlərindən, təsərrüfatlardan sübhdən günbatanadək gələn "əmək sədalarında", kərəntinin, dəyirmanın səsindədir bu nəğmə.

Ata-babalarımızın torpağı ən yaxşı gəlir mənbəyi bilib övladlarına da bunu təlqin etdiyi bineyi-qədimdən yaranıb zəhmət. Ağac əkmək, bağ salmaq, torpağın bir qarışını belə, boş qoymamaq bir baba nəsihəti, ata öyüdü olub bu yerin insanlarına. Torpağın böyük bir xəzinə olduğunu əlləri zəhmətdən naxışlar-qırışlar alan babalarımız təsdiqləyib. Ona baş əyəni torpaq başıuca edib, tər verənə zər, bağrını yarana bar-bərəkət verib. Torpaqda izi olanın cəmiyyətdə, camaat arasında nüfuzu da olub. Əkin-biçin insanların daim ehtiyacını ödəyib, ömürlərdən ötən neçə-neçə müharibə dövrlərinin yeganə ruzi qaynağı olmaqla çətinliklərin aşılmasına yardım edib. İnsanların alın açıqlığı, bəzən isə gözlərinin tək dikəcəyi olub.

Budur, bayaqdan bəri ağaclardan bir toxunuşla şaqqıltı ilə çınqıl kimi yerə səpələnən bu cəviz ən çətin zamanlarda insanların dadına yetişib. Dar günün "yoldaşı", zirzəmilərin bir küncündə bir ailənin ümidi olan kisələrlə cəviz bazarlarda buğdaya, una, kartofa dəyişdirilib bir ailənin qış ruzisinə çevrilib. Beləliklə, ata-babalar öz yadigarları olan cəviz ağacları ilə həm də övladlarına ağac əkməyi faydalı, xeyirxah iş kimi aşılayıb, ağac əkmək ənənəsinin yaradıcıları olublar. Həyət-bacalarına daim ağac əkən yaxşı ataların yaxşı övladları isə bu ata-baba ənənəsini qoruyub saxlamaqla yanaşı, həm də hər ağacı tək özlərinin yox, bir neçə ailənin – ata-ana, baba-nənə qapısına pənah gətirənlərin də ruzi mənbəyinə çeviriblər. Naxçıvanda zaman-zaman belə bir ənənə də formalaşıb ki, ata evində hər övladın adına bir ağac əkilir, o ağacın barını isə bax, payızın bu vədələrində ya özü gələr yığar, ya da toplanıb ona göndərilər.

30 il əvvəl blokadanın ilk illərinin amansız acıları ilə üz-üzə qalıb öz əlləri ilə dədə-baba yadigarları olan ağacları kəsib sobalara qoyaraq blokada qədər sərt qışların soyuqları ilə mübarizə aparan insanlar nəinki həyatlarına, illərdir, iməciliklər yolu ilə yaşadıqları şəhər, qəsəbə, kəndlərə əkdikləri yüzlərlə, minlərlə ağacla hələ yoldan ötənlərin də nübar bar dadmalarına, əl uzadıb istədikləri meyvələrdən dərmələrinə səbəb olublar. İndi diyarımızın hektarlarla meyvə bağlarında, yol kənarlarında yolçunu yoldan edən bar ağaclarının gözəlliyində səslənir zəhmətin nəğməsi.

Bəli, müxtəlif dövrlərdə insanların dadına yetişən, harayına çatan torpaq və onun köksünə tikilmiş ağaclar zamanla insanların gəlir mənbəyinə, əsas iş yerlərinə də çevrildi. Zəhmətə verilən qiymət, əmək adamlarına yaradılan şərait, edilən güzəştlər, verilən kreditlər indi yüzlərlə torpaq mülkiyyətçisi, sahibkar yetişdirib. Torpağa səpilmiş toxumlardan hasilə gələn tonlarla məhsulun, bağçalarımızın cəviz, badam, fındıq, innab, alma, heyva, armud, ərik, alça ağaclarının tonlarla meyvəsinin həm də qurudulmuş şəkildə bazarlara çıxarılması, əldə olunan gəlir zaman-zaman bu işin daha da genişləndirilməsinə və ailə təsərrüfatlarının yaranmasına səbəb olub.

Zəhmətin nəğməsinin məni xəyalən apardığı bahardan yaya, sonra yenə də payıza – günümüzə qayıdarkən bu nəğməni bir də notlarını hər fəsildə zəhməti ilə sıralayıb musiqi əsərinə çevirən insanların simasında dinləyirəm. Bu nəğmə ilə üzlər gülür. Çünki bu nəğmə həm də bazarlarımızın, kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarının, süfrələrimizin bolluq nəğməsidir. Müxtəlif kənd təsərrüfatı məhsulları festivallarında zənginliyi, çeşidi ilə qədim əkinçilik mədəniyyətimizi təsdiqləyən hünər, zəhmət nəğməsidir.

✍ **Mətanət MƏMMƏDOVA**

*İdman*

## Futbol üzrə *"Naxçıvan kuboku – 95"* beynəlxalq turnirinə start verilib

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası və Naxçıvan Futbol Federasiyasının birgə təşkilatçılığı ilə 13-14 yaşlı futbolçular arasında ilk dəfə olaraq Naxçıvanda beynəlxalq turnirə start verilib.*



Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 illik yubileyinə həsr olunmuş "Naxçıvan kuboku – 95" turnirində Özbəkistan Respublikasının "Qaraqalpaqıstan" və "Əndican" futbol akademiyaları, Azərbaycanın "Qarabağ" və "Rekord" komandaları ilə Naxçıvanın əsas komandası mübarizə aparır.

Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi ilə əlamətdar olan turnirin keçirilməsində məqsəd Naxçıvanda futbolun kütləviliyinə və inkişafına nail olmaq, uşaq futbolçular arasında dostluq münasibətlərini yaratmaqdır.

Şərur Olimpiya İdman Kompleksinin stadionunda keçirilən beynəlxalq turnirdə komandalar dairəvi sistem üzrə mübarizə aparırlar. Son turdan sonra ən çox xal toplamış komanda turnirin qalibi olacaq. Əsasnaməyə uyğun olaraq hər turda bir komanda istirahət edir. Gün ərzində isə azarkeşlər iki oyuna şahidlik edəcəklər. Təqvimə əsasən turnirin ilk 4 turu kompleksin stadionunda oynanılacaq. Son turun oyunları isə Naxçıvan Muxtar Respublika Stadionunda keçiriləcək.

Artıq turnirdə ilk turun oyunları keçirilib. Belə ki, azarkeşlər birinci oyunda özbək derbisinə şahidlik ediblər. "Qaraqalpaqıstan" və "Əndican" futbol akademiyalarının görüşü gözləniləndən də gərgin mübarizə şəraitində keçib. İlk 10 dəqiqədə üç qolun şahidi olan azarkeşlər ikinci hissədə daha bolqollu oyun izləyiblər. "Əndican" komandasının futbolçuları meydanı 4:2 hesablı qələbə ilə tərk ediblər.

Günün ikinci oyununda meydanda Naxçıvan təmsilçisi "Rekord" komandasının futbolçularını sınağa çəkib. İlk hissədə qonaqlar cərimə zərbəsindən vurduqları qolla hesabı açıblar. Lakin ikinci hissədə oyunun gedişində təşəbbüsü ələ alan naxçıvanlı futbolçular "status-kvo"nu bərpa ediblər. Bu, oyunda vurulan son qol olmayıb. Görüşün başa çatmasına 3 dəqiqə qalmış rəqibi daha bir dəfə mərkəzə dəvət edən komandamız turnirin ilk turunu 3 xalla başa vurub – 2:1.

Bu gün turnirdə daha iki oyun keçiriləcək. Əvvəlcə meydana "Rekord" və "Əndican" komandaları çıxacaq. Saat 13⁰⁰-də başlayacaq görüşdə isə "Qarabağ" "Qaraqalpaqıstan" komandasını sınağa çəkəcək.

Qeyd edək ki, turnirə oktyabr ayının 18-də yekun vurulacaq və qaliblər təşkilatçılar tərəfindən kubok və medallarla mükafatlandırılacaqlar.

## Futzal liqasında ilk tura yekun vurulub



*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Futbol Federasiyasının təşkilatçılığı ilə Naxçıvanda fəaliyyət göstərən dövlət və özəl təşkilatlar arasında keçirilən futzal liqasının ilk turuna yekun vurulub.*

Beynəlxalq futzal qaydalarına uyğun olaraq təşkil edilən və 24 komandanın mübarizə apardığı liqada 11 görüş keçirilib, bir oyun isə təxirə salınıb. Görüşlərdə aşağıdakı nəticələr qeydə alınıb:

*Ədliyyə Nazirliyi - Sığorta Agentliyi 2:6*
*Türkiyə Konsulluğu - "Prestij" 0:6*
*Naxçıvanbank - Fövqəladə Hallar Nazirliyi 3:9*
*Penitensiar Xidmət - Dövlət Dəmir yolu 5:2*
*Daxili Qoşunlar - Mərkəzi Bank 9:0*
*ƏƏSMN - Daşınmaz Əmlak Xidməti 8:4*
*"Ağbulaq" - Mədəniyyət Nazirliyi 7:3*
*Xarici İşlər İdarəsi - Nəqliyyat Xidməti 6:5*
*Antiinhisar - Hava Limanı 0:8*
*"Naxçıvan TV" - "Cahan Holdinq" 1:7*
*Təhsil Nazirliyi - "Nəqşicahan Holdinq" (təxirə salınıb)*

İlk turdan sonra 11 komandanın aktivində 3 xal var.

Qeyd edək ki, futzal liqası muxtar respublikada ilk dəfə olaraq keçirilir.

*Naxçıvan Muxtar Respublika Stadionunda veteran futbolçularımızla "Araz-Naxçıvan"ın əsas komandası arasında yoldaşlıq görüşü keçirilib.*

## Veteran futbolçuların məşqləri başlayıb



Naxçıvan Futbol Federasiyasının təşkilatçılığı ilə keçirilən görüşdə muxtar respublikanın futbol klublarında, eləcə də "Araz-Naxçıvan"ın heyətində çıxış etmiş keçmiş futbolçular mübarizə aparıblar.

İki heyətdən ibarət olan komandalar formal olaraq "Sarılar" və "Qırmızılar" adlandırılıb. Görüş "Qırmızılar"ın 2:1 hesablı qələbəsi ilə başa çatıb.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Futbol Federasiyasının təşkilatçılığı ilə keçiriləcək yoldaşlıq görüşlərinə hazırlıq məqsədilə veteran futbolçuların məşqləri bərpa edilib. Onlar muxtar respublika stadionunda məşqlərə başlayıblar.

## İdmançımız gümüş medal qazanıb

Bakı şəhərində yerləşən Milli Gimnastika Arenasında bədii gimnastika üzrə 26-cı Azərbaycan və Bakı birinciliyi, eyni zamanda 6-cı bölgələrarası kubok keçirilib.



Yarışda Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən bədii gimnastika bölməsinin idmançısı Günəş Hüseynova da mübarizə aparıb. İdmançımız çoxnövçülük proqramı üzrə yarışın gümüş medalını qazanıb.

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Şərur rayonu, Çomaxtur kəndində yaşamış Əliyev Hüseyn Mirzə oğlunun adına verilmiş JN-219$^{A}$ və JN-219$^{C}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Hüseynov Arif Yaqub oğlunun adına olan əmək kitabçası itdiyindən etibarsız sayılır.

* * *

Dünyamalıyev Emin Yusif oğlunun adına olan "Balkankar-35" markalı avtoyükləyicinin AZ 85-T-676 dövlət nişanı itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 699